BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2015*

UOT 342

# KORRUPSİYA -HAKİMİYYƏT MÜNASİBƏTLƏRİNDƏ İCTİMAİ MARAQLARIN FƏRDİ SUİ-İSTİFADƏYƏ MƏRUZ QOYULMASI FENOMENİ KİMİ

**S.S.SULTANOV**
***Bakı Dövlət Universiteti***
***samed-inter@hotmail.com***

*Məqalə siyasi sistemin ən ciddi problemlərindən olan korrupsiya cinayətinin anlayışını formalaşdıran əlamətlərin təsnifatının hüquqi qiymətləndirilməsinə həsr edilib. Korrupsiyanın tarixi inkişaf istiqamətləri, ayrı-ayrı dövlətlərdə onunla mübarizə məsələləri tədqiq edilir. Müasir dövrdə inkişaf etmiş dövlətlərin qanunvericiliyi müqayisəli formada təhlil edilir. Bu cinayətin qiymətləndirilməsində beynəlxalq müqavilə normaları daxili qanunvericiliyə münasibətdə tədqiq edilir. Azərbaycan Respublikasının qanunvericiliyindəki boşluqlar ifadə edilir və onların aradan qaldırılması məqsədilə təkliflər irəli sürülür.*

**Açar sözlər:** korrupsiya, hakimiyyətdən sui-istifadə, rüşvət, ictimai və şəxsi maraqlar, korrupsiya əleyhinə qanun, korrupsiya ilə mübarizə, qeyri-qanuni üstünlük

Korrupsiyanın yaranması dövlətin meydana gəlmə tarixinə təsadüf edir [10, 8]. Korrupsiya dövlətin xüsusi səlahiyyətli şəxslərinin hakimiyyətdən sui-istifadə etmək meylləri ilə bağlı olmuşdur. Korrupsiya haqqında qədim çin, roma, orta əsr ərəb, avropa [20, 7] və d. mənbələrdə məlumat verilir. Nə qədər çox istənməsə də korrupsiya bu gün də həyatın reallığı kimi cəmiyyətə ziyan vurmaqdadır [4, 7] və onunla mübarizə öz aktuallığını saxlamaqdadır. Korrupsiya haqqında ilk məlumatlarda, xüsusən də Qədim Babilistan mənbələrində, Romada XII Cədvəl Qanununda və d. mənbələrdə bu əməl rüşvətxorluq, hakimiyyətdən sui-istifadə etməklə aldatmaq cinayəti kimi qiymətləndirilirdi. Qədim hind abidəsi "Artxşastrada" qeyd edilir ki, hökmdarın ən mühüm vəzifələrindən biri dövlət pulunu oğurlayanlarla mübarizə etmək təşkil edir, hökmdar belə şəxsləri müəyyən edib cəzalandırmalıdır [11, 49].

Korrupsiya ilə mübarizədə əsaslı dönüş XX əsrdə baş vermişdir. XX əsrin ortalarından başlayan iqtisadi inteqrasiya prosesləri korrupsiyanın da beynəlmiləlləşməsinə gətirib çıxarmışdır ki, bu da korrupsiya ilə mübarizənin beynəlxalq hüquqi əməkdaşlıq müstəvisinə keçirilməsini şərtləndirmişdir. Korrupsiya elə bir inkişafa malikdir ki, onunla mübarizə yalnız dövlətlərin qarşılıqlı

əməkdaşlığı əsasında effektli ola bilər.

Müasir korrupsiya «*corrumpere*» terminінə qədim Roma hüququnun mənbəsi olan XII Lövhə Qanununda, qədim Yunanıstan mənbələrində rast gəlinir [8]. Korrupsiya və ya latın dilində «*corrumpere*» «*cor*» vasitəsilə və «*rumpere*» əldən qapmaq, korlamaq, dağıtmaq və ya oxşar mənalarda qanunu üstələmək və ya pozmaq kimi məna kəsb edir. Korrupsiya tamah məqsədi ilə törədilən cinayət əməlidir. Korrupsiyaya dəqiq anlayış vermək üçün onun fəlsəfi- hüquqi mənaları müəyyən edilməlidir.

2001-ci ildə nəşr edilmiş rus hüquq ensiklopediyasında korrupsiya kompleks hadisə kimi göstərilir. Korrupsiya dövlət və digər qulluqçuların pulla alınması, hakimiyyət və ya qulluq mövqeyindən sui-istifadə, rüşvət vermə və alma, cəmiyyətin və dövlətin qanuni maraqlarına xələl gətirməklə hakimiyyət nümayəndəsinin və ya qulluqçunun özü, yaxud üçüncü şəxslər üçün fayda saxlama, digər əmlak hüquqları şəklində fayda əldə etmək məqsədilə qulluq mövqeyindən qanunsuz istifadə etməsi və ya başqa fiziki şəxslər tərəfindən həmin şəxsə belə faydanın qanunsuz şəkildə verilməsi, habelə həmin əməllərin hüquqi şəxsin adından, yaxud mənafeləri naminə törədilməsi kimi qəbul edilir [17, 443].

Doktrinal anlamda da bu əlamətlər ifadə edilir. Korrupsiya dövlət, bələdiyyə, qanunvericilik, icra və məhkəmə hakimiyyət qurumlarının məmurları, işçiləri və nümayəndələrinin və ya kommersiya təşkilatlarının işçiləri və üzvlərinin öz statuslarından istifadə edərək hər hansı üstünlüklərə nail olmasıdır [5, 43-47; 7, 56-57; 12, 179-183; 1, 4; 2, 9-10; 27, 14-17; 21, 3-13; 22, 3-9].

Korrupsiya müxtəlif formada təzahür edə bilər. Korrupsiya geniş anlayış olmaqla özündə müxtəlif sui-istifadə hallarını ehtiva edir. Korrupsiya rüşvətlə məhdudlaşmır. Məsələn, pul və ya hədiyyə şəklində rüşvət vermək korrupsiyanın yalnız bir formasıdır. Korrupsiya insanlar arasındakı münasibətlərin demək olar ki, bütün sahələrində özünü büruzə verə bilir. Korrupsiyanın çiçəkləndiyi dövlətlərdə mülkiyyətin özəlləşdirilməsində üstünlüyün saxlanması; büdcənin icrası və büdcə vəsaitlərinin bölüşdürülməsində yandaşlara müxtəlif imtiyazların verilməsi; ticarətdə və vergidə qeyri-qanuni inhisarçılıq məqsədilə hakimiyyət, o cümlədən qanunvericilik orqanlarında qeyri-qanuni lobbizm fəaliyyəti və s. sahələrdə baş verir. Ayrı-ayrı dövlətlərin təcrübəsini tədqiq etməklə «Beynəlxalq şəffaflıq» (Transparency İnternational) təşkilatı dövlət, bələdiyyə və qeyri-hökumət strukturlarındakı korrupsiya formalarından: qohumlara və dostlara, tanışlara üstünlüyün saxlanması; dövlət sifarişləri üzrə kontraktların əldə edilməsinə görə rüşvət; məmurların müəyyən dövlət kontraktları üzərində patronajı; vəzifəyə dair xidmətlərin satışı; iş adamlarının məmurlara göstərdiyi xüsusi qonaqpərvərlik; iş adamlarının məmurların ailə üzvlərinə göstərdiyi xüsusi qayğı; məmurların və ailə üzvlərinin xaricə ezamiyyətə getmələri; müxtəlif siyasi partiyalara, onların nümayəndələrinə hakimiyyətdən istifadə imkanları və siyasi kampaniyalara qeyri-qanuni maddi yardım; vergi və gömrük orqanları məmurlarının vergi və gömrük tariflərinin qaldırılması hədələri ilə iş adam-

larından rüşvət tələb etməsi; eyni ilə iş adamlarına güzəştli şərait yaratdıqlarına görə məmurlara rüşvət verməyi; vəzifə borclarını təcili icra etdiklərinə görə məmurlara rüşvət verməyi; və s. təsbit edib.

Korrupsiyanın anlayışı və əlamətlər ilə, onun məzmunu ilə bağlı vahid yanaşma tərzi olmasa da korrupsiyaya verilmiş anlayışlarda ümumi meyarlar mövcuddur. Korrupsiya vəzifəli şəxsin qanunla ona verilmiş hakimiyyət səlahiyyətlərindən və ya qulluq mövqeyi ilə bağlı imkanlardan gəlir əldə etmək məqsədilə istifadə etməsi və vəzifəli şəxsə hər hansı hərəkətin edilməsi və ya edilməsindən imtina edilməsi əvəzində müəyyən maddi və qeyri- maddi nemətlərin və ya imtiyazların saxlanması ilə baş verir. Korrupsiya ilə mübarizənin səmərəliliyini təmin etmək üçün onun xüsusiyyətləri nəzərə alınmalıdır. Korrupsiya üçün xüsusi əlamətlərdən:

-hakimiyyət funksiyasından şəxsi qazanc məqsədilə istifadə edilməsi; və

-bu istifadənin qeyri-qanuni olması;

-şəxsi maraqların ictimai maraqlardan üstün tutulması;

-cəmiyyətə ciddi zərər vurulması;

-korrupsiya xarakterli tədbirin qeyri-humanist olması və s. qeyd edilməlidir.

Müasir qanunvericiliyin inkişafında 20-ci əsrdə baş vermiş hakimiyyət funksiyasından şəxsi qazanc məqsədilə istifadə edilməsi ilə bağlı bir sıra qalmaqallı hadisələr mühüm rol oynamışdır. Bunlardan Böyük Britaniya və ABŞ-dakı siyasi proseslər qeyd edilə bilər. Məsələn, Böyük Britaniyada 2005-ci il seçki kampaniyası ərzində varlı adamlar tərəfindən Leyboristlər Partiyasına ümumilikdə 14 milyon funt sterlinq verilmiş və bu adamların dördünün sonralar ömürlük per rütbələri üçün namizədliyi irəli sürülmüşdür [23].

ABŞ-ın korrupsiya haqqında qanunun qəbul olunmasına təkan verən mühüm səbəblərdən biri 1972-ci ildə Riçard Niksonun ABŞ Prezidenti vəzifəsinə namizədliyi ilə bağlı keçirilən seçki kompaniyası zamanı baş vermiş Uotergeyt qalmaqalının böyük təsiri olmuşdur. Rəqiblərin seçki qərargahlarına quraşdırılmış dinləmə qurğuları ilə bağlı qalmaqal ortaya çıxarkən, istintaq Prezident Nikson administrasiyasının əməkdaşları və onların himayəsində olan şirkətlər tərəfindən buğda satışı, süd məhsullarının qiymətinin saxlanılması, IT&T şirkətinin işinin məhkəmədən kənar nizamlanması, mənfəətli əqdlər əldə etmək məqsədi ilə xarici məmurlara milyonlarla rüşvət verilməsi faktlarını da aşkar etmişdi. Məsələn, Lockheed korporasiyasının nümayəndəsi 1976-cı ilin fevralında ABŞ Konqresində keçirilən dinləmələrdə etiraf etmişdir ki, korporasiya gəlirli biznes-preferensiya əldə etmək məqsədilə 15 dövlətdə yüksək rütbəli məmurlara 24 milyon ABŞ dolları həcmində rüşvət ödəmişdir [3, 347].

Dünyanın müxtəlif ölkələrində siyasi şəraitdən asılı olaraq korrupsiyaya münasibət birmənalı olmamışdır. Bir çox ölkələrin qanunvericiliyində korrupsiyanın ifadə etdiyimiz əlamətləri təsbit edilsə də, digərlərində bu məsələ konkretləşdirilməmişdir. Məsələn, dövlət qurumlarında yüksək səviyyədə şəffaflığı təmin edən Kanadada korrupsiya ilə mübarizə məsələlərinin hüquqi tənzim-

lənməsi konkret qanunvericiliklə deyil, ümumi formada təmin edilir. Kanada qanunvericiliyi bir sıra hüquq pozuntularını korrupsiya əməli kimi müəyyən edərək belə əməllərə qarşı qüvvədə olan Cinayət Məcəlləsində konkret cəza tədbirləri nəzərdə tutsa da Kanadanın Cinayət Məcəlləsi də daxil olmaqla bu günə kimi ölkənin qüvvədə olan qanunvericiliyində korrupsiyanın dəqiq hüquqi anlayışı yoxdur [9, 23-25].

Antikorrupsiya üzrə xüsusi qanunvericiliyə malik Böyük Britaniya və Birləşmiş İrlandiya Krallığında qeyd olunan ictimai təhlükəli əmələ qarşı mübarizə tədbirləri nəzərdə tutulmuş və cəzalar müəyyən olunmuşdur. Öncə ifadə etdiyimiz korrupsiya əlamətləri Böyük Britaniya qanunvericilində ifadə edilib. Bu dövlətdə korrupsiya ilə mübarizə üzrə qanunvericilik (Dövlət orqanlarının 1889-cu il Rüşvət Aktı (Qanunu); Korrupsiyanın qarşısının alınması üzrə 1906-cı il Aktı (Qanunu); Korrupsiyanın qarşısının alınması üzrə 1916-cı il Aktı; eksterritorial hüquqi fəaliyyətə və daha geniş sferalara tətbiq olunan 2010-cu ildə qəbul edilmiş və 2011-ci il iyul ayının 1-də qüvvəyə minmiş Rüşvətxorluq haqqında Böyük Britaniya Aktı) yeni təcrübə formalaşdırmaqla yanaşı, eyni zamanda, hüquqi mühafizə sferasına korrupsiyanın yeni təzahür növlərini gətirmiş, habelə müvafiq inzibati mexanizmlərin də yaradılmasını şərtləndirmişdir [13, 27].

Korrupsiyanın qarşısının alınması üzrə bütün dövlətlərin qanunvericilik praktikasına əsaslı təsir göstərmiş dövlətlərdən biri şübhəsiz ki, ABŞ-dır. 1977-ci ildə qəbul edilmiş Korrupsiyalaşmış xarici praktika haqqında ABŞ Qanununda biznes fəaliyyətini həyata keçirmək imkanı əldə etmək və ya onu qoruyub saxlamaq və ya başqa qeyri-qanuni üstünlük əldə etmək məqsədi ilə hər hansı xarici vəzifəli şəxsə pul və ya qiymətli dəyərə malik olan hər hansı vasitələri ödəmək, vermək və ya *vəd vermək* (*hətta rüşvət verilməsi faktiki həyata keçirilməsə belə*-kurs müəll.) ciddi qanun pozuntusu hesab edilir. Bir halı da nəzərə almaq lazımdır ki, heç də bütün ödəmələr Qanunun müddəalarının pozulması kimi qiymətləndirilə bilməz. Əməlin korrupsiya hüquq pozuntusu kimi qiymətləndirilməsi üçün «real məqsəd» olmalıdır. Bu məqsəd biznes fəaliyyətini həyata keçirmək imkanı əldə etmək və ya onu qoruyub saxlamaq və ya başqa qeyri-qanuni üstünlük əldə etmək məqsədi ilə pulun və ya başqa qiymətli hədiyyələrin rəsmi səlahiyyətə malik olan vəzifəli şəxsə verilməsində təzahür etməlidir. 1977-ci il Qanununun müddəalarını təhlil edərkən, nəzərə almaq lazımdır ki, onun fəaliyyəti əsasən xarici vəzifəli şəxsə münasibətdə korrupsiya hərəkətlərinə şamil edilir [26, 299-307; 6, 21-23].

Korrupsiya ilə mübarizə üzrə nümunəvi qanunvericiliyə malik Almaniya Federativ Respublikasının qanunvericiliyinə (məsələn,1997-ci il Korrupsiya ilə mübarizə haqqında Qanuna) əsasən korrupsiyanın anlayışına dövlət vəzifələrindən, siyasi nüfuzundan və ya *ticarət və sənaye* (kurs-müəll.) sahəsində mövqeyindən sui-istifadə edilməsi, üçüncü şəxslərə üstünlüklərin verilməsi, vəzifəli şəxslərin və ya üçüncü şəxslərin xeyrinə hər hansı faydanın əldə olunması ilə cəmiyyətə və ya şirkətlərə zərərin vurulması daxildir. Almaniya Federativ Res-

publikasının Cinayət Məcəlləsinin (1998) 298-335-ci maddələrinə uyğun olaraq, korrupsiya cinayətlərinin siyahısı genişlənmiş, buraya müsabiqələr zamanı saziş üzrə rəqabəti məhdudlaşdırma, xidməti öhdəliklərin pozulması ilə rüşvət alma və ya mənfəət götürmə, rüşvəti və mənfəəti təklif və *vəd etmə*, xidməti öhdəliklərin pozulması ilə rüşvət vermə, mülki dövriyyədə rüşvət alma və vermə, müsabiqə şərtlərinin pozulması ilə rəqabət imkanlarının məhdudlaşdırılması kimi əməllər aid edilmişdir.

Fransanın qanunvericiliyində korrupsiya cinayətinə münasibət hələ birinci imperiya dövründə qüvvədə olmuş 1810-cu il Cinayət Məcəlləsində bildirilmişdir. Həmin Qanunda korrupsiya və rüşvətxorluq cinayətləri arasında fərq də nəzərdə tutulmuşdu. Sonralar bu cinayətlərin dairəsi tarixi inkişaf nəticəsində genişlənmiş və hal-hazırda Fransanın qüvvədə olan yeni Cinayət Məcəlləsində (1992) korrupsiya sahəsində cinayətlərin 16 növü nəzərdə tutulur və bu əməlləri aşağıdakı kimi qruplaşdırmaq olar: favoritizm (üstünlük vermə); şəxsi marağa malik olan işin həllinə müdaxilə etmə; xeyir əldə etmək və ya kiməsə xeyir vermək məqsədi ilə qərarların qəbul olunmasına öz təsirindən istifadə etmə (təsir alveri); rüşvətxorluq; korrupsiya (aktiv və passiv) [15, 67-78]. Fransa Cinayət Məcəlləsinin 432-II maddəsində [18, 432] korrupsiya, xüsusən passiv korrupsiya və ya rüşvətxorluğun əsas əlamətləri müəyyən edilmiş: hədə-qorxu ilə tələb etmə və ya qəbul etmə; hər hansı hərəkəti törətmək və ya törətməkdən çəkinmə; publik vəzifəli şəxsin səlahiyyəti və ya öhdəlikləri dairəsinə daxil olma) və s. aiddir.

Korrupsiya ilə mübarizənin səmərəliliyində dünyada ilk yerlərdə dayanan Norveç Cinayət Məcəlləsinə 2003-cü il dəyişikliyi ilə ticarətdə korrupsiya (276c), passiv və aktiv korrupsiya (276b) və digər bölmələri daxil etmişdir [19, 213]. Korrupsiyanın anlayışını formalaşdıran əlamətlərin siyahısı geniş formada qanunvericilikdə təsbit edilib.

Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının 2004-cü il Qanununda (m.1) korrupsiyanın əlamətləri, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (m.308-314) məsuliyyət məsələləri ifadə edilib. Azərbaycan Respublikasının qanunvericiliyində təsbit edilən korrupsiyanın əlamətləri bir sıra hallarda sadaladığımız dövlətlərin qanunvericilik praktikasına uyğundur. Məsələn, Korrupsiyalaşmış xarici praktika haqqında ABŞ Qanununda, Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsində (1998)... *vəd vermənin* (*hətta rüşvət verilməsi faktiki həyata keçirilməsə belə*) ciddi qanun pozuntusu sayılması Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının 2004-cü il Qanunun 1-ci maddəsində də ifadə edilib. Qanunun 1-ci maddəsində deyilir ki, korrupsiya - vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya *vəd olunması* (kurs –

müəll.) və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin otuz ucüncü fəslində vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma, vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, rüşvət alma (passiv rüşvətxorluq), rüşvət vermə (aktiv rüşvətxorluq), vəzifə saxtakarlığı, səhlənkarlıq kimi tərkiblər təsbit edilib. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Cinayət Məcəllə-sinin müvafiq fəslində korrupsiya cinayətindən deyil passiv və aktiv rüşvət-xorluqdan, vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, vəzifə səlahiyyətlərini aşma və s. tərkiblərdən bəhs edilir. Azərbaycan Respublikasının Cinayət Mə-cəlləsində ifadə edilən əlamət və tərkibləri sadaladığımız dövlətlərin qanun-vericilik və Azərbaycan Respublikasının da iştirakçısı olduğu beynəlxalq mü-qavilə praktikasına uyğun hesab etmək olmaz. Məsələ ondadır ki, ABŞ-ın, Almaniya Federativ Respublikasının, Norveçin qanunvericiliyində korrupsiya cinayəti biznes, ticarət, sərmayə fəaliyyətilə əlaqələndirilmişdir. İfadə etdiyimiz Fransa qanunvericiliyində də rüşvətxorluq korrupsiya cinayətindən fərqləndiri-lir. Korrupsiya cinayəti ictimai əhəmiyyətli biznes layihələrilə əlaqəli olmalıdır. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının 2004-cü il Qanunun 8.2 maddəsində korrupsiya üçün nəzərdə tutulan (əlli manat) məbləğ də korrupsiya cinayətinin əlaməti baxımından başa düşülən deyil.

Hesab edirik ki, korrupsiyanın anlayışı ilə bağlı Azərbaycan Respub-likasının qanunvericiliyi ABŞ-ın, Almaniya Federativ Respublikasının, Norve-çin qanunvericiliyindəki anlayışa uyğunlaşdırılmalıdır. Azərbaycan Respubli-kasının qanunvericiliyində Almaniya Federativ Respublikasının qanunvericili-yində ifadə edilən...siyasi nüfuzundan və ya ticarət və sənaye sahəsində möv-qeyindən sui-istifadə edilməsi..., ABŞ qanunvericiliyində ...biznes fəaliyyətini həyata keçirmək imkanı əldə etmək...və ya əməlin korrupsiya hüquq pozuntusu kimi qiymətləndirilməsi üçün «real məqsədin» biznes fəaliyyətini həyata keçir-mək imkanı əldə etmək və ya onu qoruyub saxlamaq...istiqaməti ifadə edil-məlidir.

Azərbaycan Respublikasının qanunvericiliyində korrupsiya cinayəti üçün dəqiq anlayışın olmamasını müəyyən mənada beynəlxalq müqavilə prak-tikası ilə də əlaqələndirmək olar. Beynəlxalq müqavilələr, bu sahədə qəbul edi-lən digər aktlar da bu cinayəti tam ehtiva edəcək anlayışı formalaşdıra bilmə-mişlər. Məsələn, BMT-nin 2003-cü il Korrupsiyaya qarşı mübarizə haqqında Konvensiyası bu problemin həllindən yan keçmişdir. Avropa Şurasının həm cinayət, həm də mülki-hüquqi məsuliyyət haqqında Konvensiyalarında bu cinayət üçün anlayışı tam saymaq olmaz. Korrupsiyaya görə mülki-hüquqi məsuliyyət haqqında 1999-cu il Konvensiyasının 2-ci maddəsi ümumi formada bu cinayətə anlayış verirsə, Korrupsiyaya görə cinayət məsuliyyəti haqqında Konvensiyada (m.2) bu məsələnin həlli daxili qanunvericiliyin öhdəsinə buraxılır.

Əslində beynəlxalq aktlara görə korrupsiya ümumiləşdirici anlayış ola-raq diqqətə gəlir. Məsələn, BMT-nin Beynəlxalq kommersiya əməliyyatlarında

korrupsiya və rüşvətxorluqla mübarizə haqqında 1996-cı il Bəyannaməsinin 1-ci maddəsində deyilir ki, ...beynəlxalq kommersiya əməliyyatlarında rüşvətxorluqla və onunla bağlı korrupsiyanın *bütün formaları* (kurs – müəll.) ilə mübarizə üzrə səmərəli və konkret tədbirlər qəbul etmək ifadə edilir. Eynilə Avropa Şurasının Korrupsiyaya görə cinayət məsuliyyəti haqqında 1999-cu il Konvensiyasının bir çox müddəaları korrupsiyanın növlərini ehtiva edir. Bunlardan cinayət yolu ilə əldə edilən gəlirlərin yuyulması ilə bağlı korrupsiya adlanan 13-cü maddə qiymətləndirmə üçün bilavasitə Cinayətkar fəaliyyətdən əldə edilən gəlirlərin yuyulması, müəyyən edilməsi, götürülməsi və müsadirə edilməsi haqqında Avropa Şurasının Konvensiyasına istinad etməklə bu cinayətin xarakterini göstərir. Yenə də, 7 və 8-ci maddələrdə "xüsusi sektorda aktiv və passiv ələ alma", 14-cü maddədə "hesablarla əməliyyatlar" və s. bu cinayətin iqtisadi sfera üçün xarakterik olduğunu göstərirsə, digər maddələr isə bu sfera ilə bağlı olan və korrupsiya ehtimalına daha tez məruz qalacaq, statusu bu sfera üçün xüsusi əhəmiyyət kəsb edən vəzifəli şəxslərin ələ alınmasını ehtiva edir (m.4, 5, 6, 9, 11 və s.). Bu hal 2003-cü il MDB-nin Antikorrupsiya siyasəti haqqında qanunvericiliyin əsasları üzrə Model Qanunu üçün də xarakterikdir.

Beynəlxalq müqavilələrdən BMT-nin 2003-cü il Korrupsiyaya qarşı mübarizə haqqında Konvensiyasına görə, korrupsiya əsasən iqtisadi xarakterli əməlləri ehtiva edir. Belə əməllərdən: xarici dövlətin vəzifəli şəxslərinin və dövlətlərarası təşkilatların qulluqçularının rüşvətlə ələ alınması (m.16); dövlətin vəzifəli şəxsləri tərəfindən əmlakın talanması, mənimsənilməsi və ya başqa cür məqsəddənkənar istifadəsi (m.17); nüfuz alveri (m.18); qanunsuz varlanma (m.20); özəl sektorda rüşvətlə ələ alma (m.21); özəl sektorda əmlakın talanması (m.22); cinayət yolu ilə əldə edilmiş gəlirlərin yuyulması (m.23); gizlətmə (m.24); ədalət mühakiməsinin həyata keçirilməsinə mane olma (m.25); hüquqi şəxslərin məsuliyyəti (m.26) [16, s.59-61] və s.

Korrupsiya üçün xüsusi əlamətlərdən biri də onun cəmiyyətə ciddi zərər vurmasıdır. Dr. H. Fuller korrupsiyanın dəhşətli qlobal nəticələrə malik olması ilə bağlı BMT-nin Baş katibi Pan Ki Munun 9 dekabr Beynəlxalq Antikorrupsiya günü ilə bağlı tədbirlərin birində söylədiyi «korrupsiyanın məhz cinayət olduğu üçün rədd edilməli olması, onun biznes dairələrinə neqativ təsiri, kontrabanda ilə məşğul olan şəxslərin əlində silah kimi istifadə edilməsi, idarəetməyə və hüquq normalarına dağıdıcı təsiri» barədə xəbərdarlığını xatırladır [24].

Boston Şimal-Şərq Universitetinin professoru Nikos Passas qeyd edir ki, korrupsiya ...siyasi sabitliyi pozan, inkişafa təxribat yaradan, azad rəqabəti sarsıdan, qanunun aliliyini təhdid edən, etimadsızlıq yaradan, bərabərsizliyə və yoxsulluğa xidmət edən, şərin və ədalətsizliyin başqa mənbələrinə şərait yaradan bir bəladır [29, 9]. Son dövrlərin elmi araşdırmalarında korrupsiya və onun müxtəlif təzahür formaları XXI əsrdə dövlətlərin və xalqların demokratik, etik-mənəvi dəyərlərinə, onların sosial-iqtisadi inkişaflarına ciddi zərbə və qorxu törədən qlobal bir problem hesab edilir [28, 7-8].

Korrupsiya fenomenini tədqiq edən bir sıra mütəxəssislərin fikrincə,

hətta bəzi hallarda korrupsiyaya bəraət qazandırmaq olar [14, 122]. Məsələn, faşist Almaniyasında yəhudilərin canlarını, ailələrini qurtarmaq məqsədilə rüşvət verib ölkəni tərk etmələri qeyd edilir. Lakin bu tədbir humanist xarakteri daşıdığından onu korrupsiya kimi qiymətləndirmək olmaz. Təsadüfi deyil ki, Korrupsiyalaşmış xarici praktika haqqında ABŞ Qanununda heç də bütün ödəmələr Qanunun müddəalarının pozulması kimi qiymətləndirilmir. Əməlin korrupsiya hüquq pozuntusu kimi qiymətləndirilməsi üçün niyyətin *qeyri-qanuni üstünlük əldə etmək* istiqaməti təzahür etməlidir. Faşist Almaniyasında yəhudilərin canlarını, ailələrini qurtarmaq məqsədilə rüşvət verib ölkəni tərk etmələri humanist xarakterli akt olmaqla pozitiv üstünlüyə deyil, neqativ diskriminasiyanın aradan qaldırılmasına xidmət edib.

Beləliklə, korrupsiya cəmiyyət tərəfindən ayrı-ayrı sosial institutlara və ya şəxslərə hakimiyyət imkanlarının verilməsini və ya axırıncıların belə imkanları qəsb etməsini şərtləndirən və idarəçiliyin əksər modellərinə xas olan neqativ hal olmaqla hakimiyyət funksiyasından qeyri-qanuni istifadəyə yol açan, şəxsi qazanc məqsədini ictimai maraqlardan üstün tutan, cəmiyyət üçün ciddi siyasi, iqtisadi, hüquqi və s. təhdid yaradan qeyri-humanist xarakterli sosial hadisədir.

## ƏDƏBİYYAT


1. Məsimli Ə., Məsimli İ. Korrupsiya və şəffaflıq. Bakı, 2005, s. 4; Məmmədov R.F., Qəmbərov H.D., Məmmədov X.R. Korrupsiya ilə mübarizə: beynəlxalq hüquq və Azərbaycan Respublikasının milli qanunvericilik təcrübəsi. Bakı: Azərnəşr, 2013, s.9-10
2. Parenti Maykl. Seçilmişlər üçün demokratiya. Bakı: 2008, 512 s.
3. Tarhan Bülent R. Yolsuzluklarla mücadele: Kanunlar, Yönetmelikler, Uluslararası sözleşmeler, eylem planları. Ankara: 2006, s. 7
4. Артемьева М.В. Коррупция и коррупционные преступления //Юридическая наука, М.: 2011, № 1, с.43-47
5. Бакатин Д.В. Закон США о коррупционной деятельности за рубежом. Некоторые вопросы применения и толкования: Монография / Д.В. Бакатин, Т.К. Ковалева. М.: МГУ, 2001, 78 с.
6. Давитадзе М.Д. Коррупция: вид, причины и последствия //Актуальные проблемы борьбы с коррупцией и организованной преступностью: сб. науч. ст. /под ред Н.Г.Кадникова и М.М.Малниковцева. М.: 2009,с. 56-57
7. Законы XII Таблиц //История Древного Рима. http://www.ancientrome.ru/gosudar-/12.html
8. Зотова Г. Противодействие коррупции за рубежом //Преступление и наказание, 2011, № 4, с.23-25
9. К обществу без кооррупции. Информационно-аналитический журнал, 2001, № 3, s.8
10. Коррупция-глобальная проблема современности. Библиографический указатель /сост. Н.Е.Козельцева; отв. 3-и вып. Л.Н.Патрина; ТОГБУК «Тамб. Обл. универс. Науч. библиотека им А.С.Пушкина».Отдел правовой информации. Тамбов: 2012, с.49
11. Климова М.В. Состояние, динамика и структура коррупционной преступности в РФ // Обеспечение процесса реформирования исполнения наказания в Российской Федерации: сб. материалов междунар. науч.-практ. конф. Рязань: 2010, с. 179-183
12. Кремянская Е. Организация борьбы с коррупцией в зарубежных странах: опыт США и Великобритании //Право и управления XXI век. №3 (28), 2013, с. 24-31

13. Мари Мендрас. Обогащение и клиентско-патронажные отношения в России // Конституционное право: Восточно-европейский обзор, № 1(22), 1998, с. 122
14. Марку Ж. Борьба против коррупции во Франции // Журнал российского права, 2012, № 7, с.67-78
15. Международно-правовые основы борьбы с коррупцией и отмыванием преступных доходов. Сборник документов /Сост. В.С.Овчинский.-М.: ИНФРА-М, 2004, с. 59-61
16. Тихомирова Л.В., Тихомиров М.Ю. Юридическая энциклопедия /под ред. Л.В.Тихомирова. Изд.5-е, доп. и перераб. М.: 2001, 443 с.
17. Уголовный Кодекс Франции. Перевод с французского Н.Е.Крыловой, Санкт-Петербург: 2003, 650с.
18. Уголовный Кодекс Норвегии. Перевод с норвежского А.В.Жмения. Санкт-Петербург: 2003, 375 с.
19. Хабриева Т.Я. Научно-правовые проблемы противодействия коррупции //Журнал россиискового права,-2012, № 7, с, 7
20. Building integrity and reducing corrupttion in defence / A Compendium of best practices. Geneva centre for the democratic control f armed forces. Geneva, 2010, p. 3-13
21. Buscagila Eduardo and Dijk van Jan. Controlling organized crime and corruption in the public sector // Forum on crime and society. Vol. 3, № 1 and 2, December, 2003. p. 3-9
22. Cash for Peerages, http://everything2.com/title/Cash+for+Peerages
23. Heike Fuller. Corruption prevention at the Federal Foreign Office, http: // www. auswaertiges-amt.de
24. Hofman S. Lessons and questions to combat bribery and corruption under international law. Washington, 2001, p. 7-8
25. Klitgaard R. Introduction: subverting corruption //Global Crime. 2006. № 7, pp. 299- 307
26. Organized crime, corruption and the vulnerability of defence and security forces // Transparency international UK, 2011, p. 14-17
27. Susan Rose-Acherman, Tina Soreide. International Handboook on the economics of corruption, Volume two. 2011, 624p.
28. The United Nations Convention against Corruption as a way of life. Edited by Nikos Passas and Dimitri Vlassis. Milan. ISPAC, 2007. 268 p.

## КОРРУПЦИЯ КАК ФЕНОМЕН ПОДВЕРГАНИЯ ОБЩЕСТВЕННЫХ ИНТЕРЕСОВ ЛИЧНОМУ ЗЛОУПОТРЕБЛЕНИЮ ВО ВЛАСТНЫХ ОТНОШЕНИЯХ

**С.С.СУЛТАНОВ**

### РЕЗЮМЕ

Статья посвящена правовой оценке классификации признаков, образующих понятие коррупции как преступления, являющегося одной из серьезных проблем политической системы. В статье исследуются направления исторического развития коррупции, вопросы борьбы с коррупцией в отдельных государствах. В сравнительной форме анализируется законодательство развитых государств в современный период. В оценке этого преступления исследуются международные договорные нормы в отношении внутреннего законодательства. Отмечаются пробелы в законодательстве Азербайджанской Республики и делаются предложения в целях их устранения.

**Ключевые слова:** коррупция, злоупотребление властью, взятка, общественные и личные интересы, антикоррупционное законодательство, борьба с коррупцией, незаконное превосходство

## CORRUPTION AS A PHENOMENON OF EXPOSURE OF THE PUBLIC INTERESTS TO THE PERSONAL ABUSE IN POWER RELATIONS

**S.S.SULTANOV**

**SUMMARY**

The article is devoted to the legal assessment of the classification of signs, forming the concept of corruption as a crime, which is one of the major problems of the political system. The article investigates the historical development trends of corruption, the fight against corruption in various countries. The article includes the comparative analysis of the legislations of modern developed countries. International treaty provisions are researched in relation to domestic legislation during the legal assessment of this crime. Gaps in the legislation of the Republic of Azerbaijan are noted and proposals were made to eliminate them.

**Key words:** corruption, abuse of authority, bribe, public and private interests, anti-corruption legislation, combating corruption, illegal superiority